**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STANDARTI**

**AZS**
**CODEX STAN 1-1985**

İlkin nəşr

# Qablaşdırılmış qida məhsullarının markalanması üçün ümumi standart

# General standard for the labeling of prepackaged food

LAYİHƏ

İstinad nömrəsi
AZS XXX – 20XX

©AZSTAND 20XX

LAYİHƏ

Bu standart Azərbaycan Standartlaşdırma İnstitutunun icazəsi olmadan tam və ya hissə-hissə yenidən çap oluna, çoxaldıla və yayıla bilməz

Elçin İsaqzadə küç., 7-ci köndələn
Telefon: +994125149308
Email: office@azstand.gov.az

## MÜQƏDDİMƏ

1 ~~“Qida məhsullarının standartlaşdırılması üzrə” Texniki Komitə (TK 07) tərəfindən hazırlanıb və təqdim edilib. Kodeks  Alimentarius Milli Komitəsi tərəfindən dövlət standartı kimi qəbul edilməsi məqsədə müvafiq hesab edilmişdir.~~

~~2  Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin 14 dekabr 2015-ci il tarixli 150111500016 nömrəli qərarı ilə təsdiq edilmişdir. 5 nömrəli əlavə~~

~~3 Bu standart CODEX STAN 210 – 1999, « Standard for named vegetable oils » standartının autentik tərcüməsi əsasında hazırlanmışdır.~~

~~4 İlk dəfə tətbiq edilir.~~

~~5 Dövlət standartında müəyyən edilən tələblərin beynəlxalq standartlara, norma, qayda və tövsiyələrə və digər dövlətlərin müvafiq mütərəqqi milli standartlarına, elm, texnika və texnologiyanın müasir nailiyyətlərinə əsaslanmasını müəyyən etmək üçün standartın ilkin yoxlama müddəti 2020-ci il, dövrü yoxlama müddəti 5 ildir.~~

LAYİHƏ

**MÜNDƏRİCAT**


1 Tətbiq sahəsi........................................................................................ 1

2 Təriflər.......................................................................................................... 1

3 Ümumi prinsiplər...................................................................................... 1

4 Qida məhsullarının məcburi markalanması.......................................... 1

5 Əlavə mütləq tələblər.................................................................................. 1

6 Məcburi markalanma tələblərinə qoyulan istisnalar................................ 2

7 Könüllü markalanma..................................................................................... 2

8 Mütləq məlumatın təqdim olunması.......................................................... 3


LAYİHƏ

## 1. TƏTBİQ SAHƏSİ

Bu standart, qablaşdırılmış qida məhsulunun istehlak və ya iaşə məqsədləri ilə təqdim edilməsi üçün markalanması və bu zaman yaranan müxtəlif məsələləri əhatə edir.

## 2. TƏRİFLƏR

Bu standartın məqsədləri üçün aşağıdakı terminlərdən istifadə edilir:

“Bəyanat” - qida məhsulunun, onun mənşəyi, qidalılıq xüsusiyyətləri, təbiəti, istehsalı, emalı, tərkibi və ya hər hansı bir digər keyfiyyət göstəricisi ilə bağlı olan müəyyən xüsusiyyətlərə malik olmasını təsdiq edən, bildirən və ya nəzərdə tutan hər hansı bir sənəddir.

“İstehlakçı” – özünün və ya ailəsinin şəxsi tələbatını ödəmək məqsədi ilə pul ödəyən və əvəzində qida məhsulu alan şəxsdir.

“Tara” – qismən və ya tamamilə təcrid edilmiş, təcrid edici örtük daxil olmaqla, fərdi şəkildə çatdırıla bilən hər hansı bir qida məhsuludur. Tara, müxtəlif sayda və ya çeşiddə bir neçə qablaşdırmanı da bir-birindən ayıra bilər.

Qablaşdırılmış məhsulların marakalanmasında tarixin qeyd edilməsi:

“İstehsal tarixi”- qidanın təsvir olunmuş məhsula çevrildiyi tarix.

“Qablaşdırma tarixi” – məhsulun, istehlak tarasına yerləşdirildiyi tarix.

“Satış müddəti” – məhsulun istehlakçıya təklif olunduğu son tarixdir. Məhsulun, istehlakçının evində saxlanması üçün bu tarixdən etibarən, yararlılıq müddətinin sonu-nadək məqbul vaxtda qalmalıdır.

“Minimal yararlılıq müddəti” (“keyfiyyətin qorunub saxlandığı müddət” – qeyd edilmiş hər hansı şərtlər daxilində, məhsulun satış üçün tam yararlı qaldığı, bəyanatlarda nəzərdə tutulan və ya aydın şəkildə ifadə olunan xüsusi keyfiyyətləri qoruyub saxladığı, saxlama müddətinin bitdiyi tarix. Buna baxmayaraq, bu tarixdən sonra məhsul, tamamilə qənaətbəxş hesab oluna bilər.

“Yararlılıq müddəti” (Tövsiyyə edilən son istehlak tarixi, son istifadə tarixi) - qeyd edilmiş hər hansı şərtlər daxilində saxlandığı müddətdən sonra, istehlakçının gözlədiyi keyfiyyət göstəricilərinə malik olmayacağı ehtimal edilən tarix. Bu tarixdən sonra, məhsul satış üçün yararlı hesab olunmur.

“Qida məhsulu” xam, yarım xam və ya emal edilmiş şəkildə olan, insan tərəfindən qidada istifadə edilən məhsul , həmçinin içkilər, saqqız və ya istehsal, emal və hazırlanma zamanı istifadə edilən hər hansı bir maddədir və özündə kosmetik və tütün məhsullarını cəmləşdirmir.

“Qida əlavəsi” qida dəyərliliyindən asılı olmayaraq, qida məhsulunun tərkibində olmayan və məhsula inqrediyent kimi əlavə edilən, istehsal, emal, hazırlanma, qablaşdırma, saxlama və daşınması zamanı texnoloji (həmçinin orqanoleptik) məqsədlərlə və ya gözlənilən nəticənin (bilavasitə və ya dolayı yol ilə) əldə edilməsi üçün və ya sözü gedən məhsul inqrediyent kimi istifadə olunacaqsa yekun məhsulun hər hansı bir xüsusiyyətinə təsir edilməsi üçün istifadə olunan maddə.

“İnqrediyent” qida məhsulunun hazırlanması və istehsalı zamanı istifadə olunan və hazır məhsulun tərkibində ilkin və ya dəyişildirilmiş şəkildə olan maddə.

LAYİHƏ

“Etiket” məhsulun qabının üzərində olan hər hansı bir yarlık, brend, marka şəkil və ya izahedici material.

“Markalanma” - məhsulu müşayət edən və ya məhsulun yaxınlığında yerləşdirilmiş, məhsulun satışı zamanı etiket üzərində yer almış hər hansı bir yazı, çap və ya qrafik material.

“Partiya” eyni şərtlər altında istehsal edilmiş məhsulun müəyyən miqdarı.

“Qablaşdırılmış” termini istehlakçıya və ya ictimai iaşə obyektlərinə təqdim edilməsi üçün qablaşdırılmış və ya qaba yerləşdirilmiş mənasını verir.

“Texnoloji maddə” avadanlığın və əşyaların tərkib hissəsi, habelə qida məhsulun inqrediyenti olmayan, xammal, qida məhsulu və ya inqrediyentinin emalında müəyyən texnoloji məqsədlərə nail olmaq üçün qəsdən istifadə olunan və hazır məhsulda özünü qalıq və ya törəmə şəklində biruzə verən maddə və ya material.

“İctimai iaşə obyektləri üçün qida” restoranlar, yeməkxanalar, məktəblər, xəstəxanalar və oxşar müəssisələrdə bilavasitə istehlak üçün təqdim edilən qida məhsulları.

## 3. ÜMUMİ PRİNSİPLƏR

3.1 Qablaşdrılmış qida məhsulu, xüsusiyyətinə uyğun olmayaraq, həqiqətdən uzaq, yanılda biləcək və ya aldadıcı və ya yalnış təəsürat yarada biləcək şəkildə markalana və ya təqdim oluna bilməz.

3.2 Qablaşdırılmış qida məhsulu başqa bir qida məhsulunu təsvir edən və ya bilavasitə, yaxud dolayı yolla bu məhsulla səhv salına bilən başqa məhsul haqqında fikir yaradan, yaxud verilmiş məhsulun başqa məhsul ilə əlaqəli olmasını düşünməyə məcbur edən sözlərlə, şəkillərlə və ya digər vasitələrlə ifadə edilmiş etiket və ya markalanma, illustrasiya vasitəsi ilə təqdim oluna bilməz.

## 4. QİDA MƏHSULLARININ MƏCBURİ MARKALANMASI

Kodeks standartınının hər hansı xüsusi markalanan qida məhsuluna uyğunluğunu nəzərə alaraq üzərində aşağıdakı məlumat yer almalıdır:

**4.1 Məhsulun adı**

4.1.1 Məhsulun adı məhsulun təbiətinə uyğun olmalı və ümumi deyil, xüsusi olmalıdır:

4.1.1.1 Əgər Kodeks standartında qida məhsulu üçün ad və ya adlar nəzərdə tutulmuşdursa, bu adlardan ən azı biri istifadə edilməlidir.

4.1.1.2 Digər hallarda yerli qanunvericiliklə təyin edilmiş adlardan istifadə edilməlidir.

4.1.1.3 Bu cür adlar olmadıqda, ya ümumi istifadədə olan adlardan, və yaxud terminin müvafiq təsviri qismində ümumi istifadədə olan və istehlakçını yanıltmayan və onun üçün qarışıqlıq yaratmayan adi addan istifadə edilir.

4.1.1.4 “Uydurulmuş”, “fantastik”, “firma adı” və ya “əmtəə nişanı” adlarından o zaman istifadə edilməsinə icazə verilir ki, bu adlar 4.1.1.1-4.1.1.3 bəndlərində qeyd edilmiş adlarla müşayət edilsin.

4.1.2 Etiket üzərində məhsulun adı ilə bəbabər və ya onunla yanaşı elə əlavə sözlər və ifadələr yerləşdirilməlidir ki, bunlar məhsulun əsl xüsusiyyət və fiziki halı, həmçinin qablaşdırma və ya yığılma sahəsinin tipi, qalaşdırma növü və rejim, və ya qida məhsulunun məruz qaldığı emal üsulu haqqında yanlış fikir yaratmasın; məsələn, qurudulmuş, qatılaşdırılmış, tərkibindəki suyun və ya ilkin qatılığın bərpası ilə, bişmiş.

**4.2 İnqrediyent siyahısı**

4.2.1 Tək inqrediyentdən ibarət olan məhsullar istisna olmaqla, inqrediyent siyahısı etiket üzərində yer almalıdır.

4.2.1.1 İnqrediyentlər siyahısı "inqrediyent" termini başlığı altında və ya bu termin istifadə edilmiş müvafiq başlıq altında yerləşdirilməlidir.

4.2.1.2 Bütün inqrediyentlər, məhsulun istehsalı zamanı çəkilərinin (m/m) azalması sırası ilə növbələşdirilməlidir.

4.2.1.3 Məhsulun tərkibinə daxil olan inqrediyent özü də iki və ya daha çox inqrediyentdən ibarət olduqda, bu cür mürəkkəb inqrediyent inqrediyentlər siyahısında mürəkkəb inqrediyentin adı ilə qeyd edilir və bu addan sonra mötərizə daxilində inqrediyentin tərkibinə daxil olan komponentlər miqdarının azalaması sırası ilə (m/m) yerləşdirilir. Hazır məhsulda texnoloji fuksiya yerinə yetirən qida əlavələri istisna olmaqla, mürəkkəb inqrediyent (bu inqrediyent üçün Kodeks standartında və ya milli qanunvericilikdə ad nəzərdə tutulmuşdursa) məhsulun 5%-indən az hissəsini təşkil etdikdə onun inqrediyentlər siyahısında qeyd edilməsi məcburi deyil.

4.2.1.4 Aşağıdakı məhsullar və inqrediyentlər hiperhəssaslığa səbəb olur və hər zaman qeyd edilməlidir:

- Tərkibində qluten olan dənlilər; məsəslən, buğda, çovdar, arpa, yulaf, spelt və ya onların hibridləri və onlardan hazırlanmış məhsullar;
- Xərçəngkimilər və onlardan hazırlanan məhsullar;
- Yumurta və yumurta məhsulları;
- Balıq və balıq məhsulları;
- Fıstıq, soya toxumu və onlardan hazırlanmış məhsullar;
- Süd və süd məhsulları;
- Meşə fındığı və fındıq məhsulları; və
- 10 mq/kq və ya daha artıq qatılıqda sulfit.

4.2.1.5 Əlavə edilmiş su, turşu, sirop kimi inqrediyentlər mürrəkəb məhsulların tərkibində sadalanan hallar istisna olmaqla, inqrediyentlər siyahısında yer almalıdır. Su və ya uçucu inqrediyentlər, istehsal zamanı buxarlandığı halda onların qeyd edilməməsinə yol verilir.

4.2.1.6 Bu bölümün əsas şərtlərinə alternativ olaraq, sonradan su əlavə edilməsi ilə bərpa olunan, susuzlaşdırılmış və ya qatılaşdırılmış qida məhsullarının tərkibində olan inqrediyentlərin ardıcıllığı məhsulun bərpa olunmuş halda olan inqrediyentlərin miqdarlarının azalması sırası ilə olmalı və "etiketdə verilmiş təlimat əsasında hazırlanmış məhsulun tərkibində olan inqrediyentlər" başlığı altında qeyd edilməlidir.

4.2.2 4.2.1.4 bəndində qeyd edilmiş allergenlər siyahısında göstərilmiş məhsullardan biotexnologiya vasitəsi ilə alınmış qida məhsulu və ya qida inqrediyentləri qeyd edilməldir.

Markalanma vasitəsi ilə məhsulun tərkibində allergenin mövcud olmasının göstərilməsi mümkün olduqda, məhsulun tərkibində allergenin olmasının yazılmamasına yol verilir.

4.2.3 İnqrediyentlər siyahısında yer alan inqrediyentlərə 4.1 bəndinə uyğun konkret adlar verilməlidir. Aşağıdakı hallar istisna təşkil edir:

4.2.1.4 bəndində qeyd edilmiş inqrediyentlərdən başqa və ümumi adın verdiyi məlumat kifayət etməzsə, aşağıdakı siniflərdirmədən istifadə oluna bilər:

| SİNİF | SİNİFLƏRİN ADLARI |
|---|---|
| Saflaşdırılmış duru yağlar, zeytun yağından başqa | Konkret haldan asılı olaraq, "Yağ" "bitki" və ya "heyvan" terminləri və ya "hidrogenləşdirilmiş" və ya "qismən hidrogenləşdirilmiş" terminləri ilə istifadəsi tövsiyyə edilir. |
| Saflaşdırılmış piylər | "Piy", "bitki" və ya "heyvan" sözləri ilə birlikdə istifadə edilməsi tövsiyyə edilir |
| Nişasta, kimyəvi modifikasiya edilmiş nişastadan başqa | "Nişasta" |
| Balıq başqa qida məhsulu üçün inqrediyent rolunu oynadıqda, bu qida məhsulunun etiketində və təqdimatında istifadə edilmiş balığın növünün göstərilməməsi şərti ilə bütün balıq növləri. | "Balıq" |
| Quş əti başqa qida məhsulu üçün inqrediyent rolunu oynadıqda, bu qida məhsulunun etiketində və təqdimatında istifadə edilmiş quşun növünün göstərilməməsi şərti ilə bütün quş növləri. | "Quş əti" |
| Pendir və ya pendir qarışığı başqa qida məhsulu üçün inqrediyent rolunu oynadıqda, bu qida məhsulunun etiketində və təqdimatında istifadə edilmiş pendir növünün göstərilməməsi şərti ilə bütün pendir növləri. | "Pendir" |
| Qida məhsulundaki tək və ya qarışıqda miqdarı 2%-dən çox olmayan ədviyyat və ya ədviyyat ekstraktları | "Ədviyyat", "ədviyyatlar" və ya "qarışıq ədviyyatlar" |
| Qida məhsulundaki tək və ya qarışıqda miqdarı 2%-dən çox olmayan bitkilər (otlar) və ya bitki (ot) hissələri | "Otlar" və ya "qarışıq otlar" |
| Saqqız əsaslı çeynəmə saqqızlarının hazırlanması üçün istifadə edilən kitrələrin bütün növləri | "Saqqız əsası" |
| Bütün saxaroza növləri | "Şəkər" |
| Susuzlaşdırılmış destroza və desktroza monohidrat | "Desktroza" və ya "qlükoza" |
| Bütün kazaenat növləri | "Kazeinatlar" |

| | |
|---|---|
| Tərkibində *quru maddədə süd zülalının minimum miqdarı 50% (m/m) olan süd məhsulları | “Süd zülalı” |
| Sızma və ya saflaşdırılmış kakao yağı | “Kakao yağı” |
| Məhsulda olan miqdarı 10%-dən çox olmayan kirstallaşdırılmış meyvə | “Kristallaşdırılmış meyvə” |
| *Süd zülalının miqdarının hesablanması: Kyedal azot × 6.38 | |

4.2.3.2 ; 4.2.3.1 Bəndində verilmiş müddəalara baxmayaraq, donuz əti, donuz piyi və mal piyi hər zaman xüsusi adlarla qeyd edilir.

4.2.3.3 Müəyyən siniflərə aid edilən və qida məhsullarında istifadəsinə icazə verilən qida əlavələri siyahısında yer almış qida əlavələri, milli qanunvericilik tələb etdiyi kimi Kodeks Beynəlxalq nömrələmə sistemi (CAC/GL 36-1989) standartında göstərilmiş nömrəsi və aid olduğu funskional sinfin adı ilə birlikdə qeyd edilməlidir.

- Turşuluq tənzimləyicisi
- Yaprıxmağa qarşı agent
- Köpükəmələgəlmənin qarşısını alan agent
- Antioksidant
- Ağardıcı agent
- Doldurucu agentlər
- Qazlaşdırıcı agentlər
- Rəngverici
- Rəng saxlayıcı agent
- Emulqator
- Emulsiya əmələ gətirici duz
- Bərkləşdirici agent
- Qoxu gücləndirici
- Un emaledici agent
- Köpük əmələ gətirici agent
- Gelləşdirici agent
- Qlazurlaşdırıcı agent
- Nəm saxlayıcı agent
- Konservant
- Qaz çıxarıcı
- Qabardıcı
- Stablizator
- Şirinləşdirici
- Qatılaşdırıcı

4.2.3.4 Müvafiq siniflərə aid olan qida məhsullarının işarə edilməsi üçün aşağıdakı sinif adlarından istifadə oluna bilər:

- Aromatizator (lar) və Ətriverici (lər)
- Modifikasiya edilmiş nişasta (lar)

  Aromatizator sözü “təbii”, “təbiiyə oxşar”, “sintetik” və ya bu sözlərin birləşməslərindən istifadə edilməklə dəqiqləşdirilə bilər.

**4.2.4 Texnoloji maddələr və qida əlavələrinin daşıyıcıları**

LAYİHƏ

4.2.4.1 Qida məhsuluna müəyyən miqdarda və ya müvafiq texnoloji funksiyanın yerinə yetirilməsi üçün kifayət edən miqdarda, xammala və ya digər inqrediyentə əlavə edilmiş qida əlavəsi inqrediyentlər siyahısında qeyd edilməldir.

4.2.4.2 Texnoloji funskiyanın əldə edilməsi üçün tələb ediləndən az miqdarda əlavə edilmiş qida əlavələri və texnoloji maddələrin inqrediyentlər siyahısında qeyd edilməməsinə yol verilir. Bu qayda 4.2.1.4 bəndində qeyd edilmiş qida əlavələri və texnoloji maddələrə aid edilmir.

**4.3 Xalis ağırlıq və süzmə çəki**

4.3.1 Xalis ağırlıq vahidlər sisteminə müvafiq olaraq qeyd edilməlidir (Beynəxalq Vahidlər Sistemi)[1].

4.3.2 Xalis ağırlıq aşağıdakı yollarla qeyd oluna bilər:

(i) maye məhsullar üçün, həcm ilə;

(ii) bərk məhsullar üçün, çəki ilə;

(iii) yarım bərk və özlü məhsullar üçün, çəki və ya həcm ilə.

4.3.3 Qida məhsulunun xalis ağırlığından əlavə, maye mühitində qablaşdırılmış məhsulların süzmə çəkisinin də qeyd edilməsi tələb olunur. Bu halda maye mühit şəkər və ya duzun suda məhlulu, konservləşdirilmiş meyvələr və tərəvəz məhsullarında meyvə və tərəvəz şirələri və ya sərbəst və ya qarışıq şəkildə sirkə.[2]

**4.4 Ad və ünvan**

Qida məhsulunun istehsalçısı, qablaşdırıcısı, distrübütoru, idxalçısı, ixracçısı və satıcısının adı və ünvanı qeyd edilməlidir.

**4.5 Mənşə yeri**

4.5.1 Mənşə yerinin göstərilməməsi istehlakçını yanıldarsa və ya onun aldadılmasına səbəb olarsa, məhsulun mənşəyini bildirən ölkə adı mütləq qeyd edilməlidir.

4.5.2 Məhsul hər hansı bir ikinci ölkədə, xüsusiyyətlərinin dəyişdirilməsi ilə emala məruz qalırsa, məhsulun mənşəyini bildirən ölkə olaraq emal həyata keçirilmiş ölkə nəzərdə tutulur.

**4.6 Partiyanın tanınması**

Hər bir taranın üzərində istehsalçı müəssisənin və ya partiyanın aydın şəkildə və ya kod vasitəsi ilə tanınması üçün məlumat həkk edilməli və ya silinməyən boya ilə yazılmalıdır.

**4.7 Tarixin qeyd edilməsi və saxlama təlimatları**

4.7.1 Xüsusi Kodeks Standartında başqa hal nəzərdə tutulmamışdırsa, aşağıdakı marakalanma tətbiq edilməlidir:

(i) "Minimum yararlılıq tarixi" qeyd edilməlidir;

(ii) Burada ən az aşağıdakılar qeyd edilməlidir:

- Yararlılıq müddəti üç aydan az olan məhsullar üçün gün və ay;
- Yararlılıq müddəti üç aydan az olmayan məhsullar üçün ay və il. Ay olaraq Dekabr ayı göstərilməlidirsə, əvəzinə ilin göstərilməsi tövsiyyə olunur.

(iii) Tarix sözlər vasitəsi ilə izah edilməldir:

---

[1] Xalis ağırlığın qeyd edilməsi qablaşdırma anına görə müəyyən edilir və orta miqdari nəzarətin orta sisteminin qey edilməsi ilə hayata keçirilir.

[2] Süzmə çəki orta miqdari nəzarətin orta sisteminin qeyd edilməsi ilə hayata keçirilir.

- “Xüsusiyyətlərini ... tarixinədək qoruyub saxlayır” ifadəsində gün qeyd edilir;
- “Xüsusiyyətlərini ...-dək qoruyub saxlayır” ifadəsi, digər hallarda istifadə olunur.

(iv) (iii) bəndində qeyd edilmiş ifadələr aşağıdakılarla müşayət edilməldir:

- Tarix ilə, və ya
- Tarixin qeyd edildiyi yerə istinad ilə.

(v) Gün, ay və il kodlaşdırılmamış ardıcıllıqla qeyd edilməlidir. İstehlakçını yanıltmamaq şərti ilə, bu hal icazə verildiyi ölkələrdə ay sözlərlə qeyd oluna bilər.

(vi) 4.7.1 (i) bəndində qeyd edilmiş müddəalardan başqa, minimum yararlılıq müddəti aşağıdakılar üçün tələb edilmir:

- Təzə meyvələr və tərəvəzlər, soyulmamış, doğranmamış və ya başqa yolla emal edilməmiş kartof daxil olmaqla ;
- Şərablar, likör şərabları, köpüklü şərablar, aromatizatorlu şərablar, meyvə şərabları və köpüklü meyvə şərabları;
- Tərkibində həcm etibarı ilə 10% və daha çox spirt olan içkilər;
- Tərkibinin xüusiyyətlərindən irəli gələrək, adətən saxlama müddəti 24 saat ilə məhdudlaşdırılan çörək və ya şirniyyat məhsulları;
- Sirkə;
- Üyüdülmüş süfrə duzu;
- Bərk şəkər;
- Tərkibində aromatizator və/və ya rəngli şəkərlər olan qənnadı məhsulları;
- Saqqız.

4.7.2 Minimum yararlılıq müddətinə əlavə olaraq, məhsulun saxlama müddətinə təsir edə biləcək hər hansı xüsusi şərtlər etiket üzərində qeyd olunmalıdır.

**4.8 İstifadə təlimatı**

Məhsulun düzgün istifadəsini təmin etmək üçün, ehtiyac olduqda, tərkibində olan maye miqdarının və ya ilkin qatılığın bərpası daxil olmaqla məhsulun istifadəsi üzrə təlimat etiketdə qeyd edilməlidir.

## 5. ƏLAVƏ MÜTLƏQ TƏLƏBLƏR

5.1 Markalanmada inqredientlərin miqdarının göstərilməsi

5.1.1 Qarışıq və ya birləşmə şəklində satılan qida məhsulları üçün, emal zamanı məhsula daxil edilən aşağıdakı inqrediyentlərin (həmçinin, mürəkkəb inqredientlərin və ya inqredientlər kateqoriyasının) həcm və ya kütləyə görə faizlə miqdarı göstərilməlidir:

(a) İnqredient, sözlər, şəkillər və ya qrafiklər vasitəsi ilə önə çəkilirsə;

(b) Məhsulun adının əhatə dairəsinə daxil deyil, məhsulun səciyyələndirilməsi üçün mühüm əhəmiyyət kəsb edir və həmin inqredientin miqdarının göstərilməməsi istehlakçını yanılda və ya aldada biləcəyi ölkədə satılması nəzərdə tutulur.

Aşağıdakı kimi açıqlama tələb edilmir:

(c) aromatizator məqsədi ilə, kiçik miqdarda istifadə edilən inqredient; və ya

(d) Kodeks Alimentariusun xüsusiləşmiş standartlarının tələbləri ilə bu standartda qeyd edilmiş tələblərə zidd olduqda.

5.1.1 (a) bəndinə istinadən:

(e) Məhsulun adında inqredient və ya inqredient kateqoriyasına istinad olunduqda, aşağıdakı hallarda markalanmada inqredientin miqdari açıqlaması tələb olunmur:

- istinad, istehlakçını yanıltmamalı, aldatmamalı, həqiqətə uyğun olmalı və ya məhsulun satışı həyata keçiriləcək ölkədə, istehlakçılarda məhsulun xüsusiyyətləri haqqında səhv fikir yaratmamalıdır, belə ki, məhsullar arasında inqredientin (inqredientlərin) miqdarının dəyişməsi məhsulları səciyyələndirmək üçün və digərlərindən fərqləndirmək üçün mühüm deyildir.

5.1.2 Məhsulun markalanmasında 5.1.1 bəndində qeyd edilmiş məlumatlar ədədi faizlə qeyd edilməlidir.

İnqredientin kütlə və ya həcmə görə faizlə miqdarı, həmin inqredientə vurğu edilən sözün, şəklin və ya qrafiklərin və ya məhsulun adının bilavasitə yanında və ya böyük miqdarda olmasına vurğu edilən inqredientin maksimal miqdarı və kiçik miqdarda olmasına vurğu edilən inqredientin minimal miqdarı inqredientlər sadalanan siyahıda göstərilməlidir.

Qızdırılma və ya hər hansı bir emal prosesində nəmliyini itirmiş qida məhsulları üçün, faiz (kütlə və ya həmcə) yekun məhsulun tərkibində olan inqredientlərə uyğun olmalıdır.

Markalanma zamanı inqredientin miqdarı və ya inqredientlərin miqdarının cəmi 100%-dən çox olarsa, faizlə göstərilmiş miqdar yekun məhsulun 100q-na daxil olan kütlə ilə əvəz edilə bilər.

**5.2 Şüalanmış qida məhsulları**

5.2.1 İonlaşdırılmış radiasiya ilə emal edilmiş qida məhsullarının etiketində, məhsulun adının yanında müvafiq emal haqqında yazılı dekalarasiya yerləşdirilməlidir. Qida məhsullarının şüalandırılmasının beynəlxalq simvolu aşağıdakı kimidir və bu simvolun istifadə edilməsi könüllüdür, lakin bu simvoldan istifadə olunarsa, onun məhsulunun adının yanında yeləşdirilməsi tələb olunur.

5.2.2 Şüalandırılmış məhsul qida məhsulunun inqrediyenti kimi istifadə olunarsa, bu fakt inqrediyentlər siyahısında qeyd edilməlidir.

5.2.3 Əgər məhsul, şüalandırılmaya məruz qalmış bir inqrediyentdən ibarətdirsə, etiket üzərində bu emal üsulu qeyd edilməldir.

## 6. MƏCBURİ MARKALANMA TƏLƏBLƏRİNƏ QOYULAN İSTİSNALAR

Ədviyyat və otlar istisna olmaqla, səthinin sahəsi $10sm^2$ –dən kiçik olan hissəciklər, 4.2 və 4.6-dan 4.8-ədək olan bəndlərdəki tələblərə qoyulan istisna təşkil edir.

## 7. KÖNÜLLÜ MARKALANMA

7.1 Markalanma zamanı hər hansı yazılı, çap edilmiş və ya qrafik məlumat və ya şəkildən istifadə edilməsinə o şərtlə icazə verilir ki, yerləşdirilmiş məlumat və şəkillər bu standartın tələblərinə, həmçinin Bənd 3-də “Ümumi prinsiplər” verilmiş istehlakçıların aldadılması və məhsulların xüsusiyyətləri haqqında bəyanatların tələblərinə uyğun olmalıdır.

7.2 Məhsulun növünə dair məlumat varsa, bu məlumat aydın olmalı və heç bir halda istehlakçını yanıltmamalı və aldatmamalıdır.

## 8. MÜTLƏQ MƏLUMATIN TƏQDİM OLUNMASI

### 8.1 Ümumi

8.1.1 Qablaşdırılmış məhsulların etiketləri elə tərzdə yerləşdirilməlidir ki, qablaşdırmadan ayrılmasın.

8.1.2 Bu standartın və ya Kodeks Alimentariusun hər hansı standartının tələblərinə uyğun olaraq etiketdə yer almış bəyanatlar, dəqiq, asan nəzərə çarpan, silinməyən, yuyulmayan və adi satınalma və istehlak prosesində asan oxuna bilən olmalıdır.

8.1.3 Əgər tara örtücü material ilə bağlanmışdırsa, örtük üzərində zəruri məlumatlar qeyd edilməli və ya tara üzərindəki yazılar örtüyün altından oxuna bilən olmalı və ya örtükdən istifadə olunmamalıdır.

8.1.4 Məhsulun adı və onun xalis ağırlığı görünən yerdə və eyni görmə sahəsində qeyd edilməlidir.

### 8.2 Dil

8.2.1 Orijinal etiket üzərindəki məlumatların istifadəsi, etiketin nəzərdə tutulduğu məqsədlər üçün yararsızdırsa, etiketin dəyişdirilməsi əvəzinə, özündə bütün zəruri məlumatları əks etdirən əlavə etiketin yapışdırılmasına yol verilir.

8.2.2 Orijinal etiketin dəyişdirildiyi və ya əlavə etiketdən istifadə edildiyi hallarda, istifadə olunmuş etiket üzərindəki yazılar tamamilə orijinal etiketdə qeyd edilmiş məlumatlara uyğun olmalıdır.

LAYİHƏ

LAYİHƏ

azstand AZƏRBAYCAN STANDARTLAŞDIRMA İNSTİTUTU

Rəsmi nəşr
“Azərbaycan Standartlaşdırma İnstitutu”
publik hüquqi şəxs

**AZS XXX 20XX**

**(CODEX STAN 1-1985)**

Qablaşdırılmış qida məhsullarının markalanması üçün ümumi standart